

# 1993-cü ilin iyun hadisələri milli dövlətçiliyimizə qəsd idi

*İyunun 4-də Gəncədə qanlı hadisələr baş vermiş, insan tələfatı, şəhərdə böyük dağıntılar olmuşdur. Bununla əlaqədar Gəncədə, ətraf rayonlarda və bütün Azərbaycan Respublikasında böyük gərginlik yaranmışdır və mürəkkəb vəziyyət mövcuddur. Mən bu hadisələrlə bağlı vicdanımın tələbi, cürbəcür təbəqələrdən olan adamların, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin xahişi ilə Bakıya gəlmişəm. Mürəkkəb, ağır vəziyyətdən çıxış yollarının axtarılması, milli barışığın, həmrəyliyin təmin olunması prosesinə qoşulmuşam.*

***Ulu öndər Heydər Əliyevin Ali Sovetin 1993-cü il iyunun 13-də keçirilmiş iclasındakı çıxışından***

***20 Yanvar faciəsi, yaxud Xocalı soyqırımı barədə söz açanda, konkret düşmən hamıya məlumdur. Tarixə İyun hadisələri kimi düşmüş Gəncə faciəsinin səbəbkarları öz içərimizdən olan bədxahlar idi.***

Həmin günlərdə dövlətimizə "rəhbərlik edənlər" işğalçı Ermənistanın təcavüzkar hücumlarının qarşısını almaq əvəzinə, vəzifə savaşına rəvac verərək qardaş qanı axıtmış, ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üzbəüz qoymuşdular.

Sonralar ulu öndər xatırladırdı ki, 1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı baş verirdi. Azərbaycan dağılmağa başlamışdı və o vaxtkı iqtidar ölkəni idarə edə bilmirdi: "Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi".

Rəsmi materiallarda oxuyuruq ki, Azərbaycan 1993-cü ildə Ermənistanla Qarabağ müharibəsindəki hərbi uğursuzluqlar səbəbindən vətəndaş müharibəsinin astanasında idi. Prezident Əbülfəz Elçibəy Azərbaycan Silahlı Qüvvələrinin korpus komandiri Surət Hüseynovu hərbi uğursuzluqlarına görə ordudan uzaqlaşdırır. Doğulduğu Gəncə şəhərinə qayıdan Hüseynov öz tərəfdarlarını silahlandırır. Hər halda, S.Hüseynovun qüvvələri 4 iyun 1993-cü ildə həmin onun dəstələrini tərksilah etmək üçün göndərilən Milli Ordu qüvvələrini məğlub edir. Surət Hüseynov itaətində olan qüvvələrlə Bakıya doğru hərəkət edərək ölkədə siyasi böhrana səbəb olur. Bu, siyasi hakimiyyətdə çaxnaşmaya gətirib çıxarır.

Daha bir mühüm xatırlatma: Ali Sovetin 1993-cü il iyunun 9-da keçirilmiş iclasında akademik İmam Mustafayev demişdi: "Şəhərin içərisində bu cür hərbi əməliyyat aparmaq göstərişini kim vermişdir? Kim ixtiyar vermişdir ki, belə bir hərəkətə əl atılsın, bu, nə deməkdir? Bu ancaq və ancaq ermənilərə kömək etmək üçün edilən bir hərəkətdir. Buna başqa ad vermək olmaz! Bu addımı atanlar istəmişlər ki, respublikanın daxilində çaxnaşma salsınlar. Buna yol vermək olmaz! Bütün xalqımız çalışmalıdır ki, Azərbaycan torpaqları düşməndən tamamilə təmizlənsin... Bu gün Gəncədə, sabah Lənkəranda, o biri gün Qubada belə iğtişaşlar baş verərsə, deməli, bunu edənlər ölkəmizi dağıtmaq, parçalamaq, birliyimizi əlimizdən almaq istəyirlər".

Tək mən yox, eləcə də çoxsaylı həmkarlarımız Gəncə hadisələri barədə dəfələrlə yazmış, müxtəlif siyasətçi, deputat və hüquq – mühafizə orqanları təmsilçilərinin fikirlərini qələmə almışıq. Ona görə də elə bilirəm ki, indi nə yazsaq, təkrar kimi qəbul edilə bilər. Odur ki, bu yazıda 1993-cü il iyunun 13-də Gəncə hadisələri ilə əlaqədar Azərbaycan Televiziyası ilə efirə getmiş verilişin bəzi məqamlarını yada salaq. Çünki hadisənin günahkarlarının çıxışlarını məhz olduğu kimi təqdim etməyimiz o zamankı iqtidarın səviyyəsi barədə daha müfəssəl təsəvvür yaradar.

Həmin hadisələr zamanı ölkənin baş naziri olmuş Pənah HÜSEYNOV: " Burada mənim ciddi hesab etdiyim adamlar da dünən televiziyadakı çıxışıma istinad etdilər. Həmişə eşitmişik ki, siyasət murdar şeydir. Bu cür məsələlərə istinad edildiyini görəndə, adam istər-istəməz belə siyasətə qoşulur. Dünənki iclas ona görə oldu ki, Etibar Məmmədov mətbuat konfransı keçirdi və dedi ki, Pənah Hüseynov guya saat 6.00-da Daxili İşlər Nazirliyindən əmr verib. Allah yalançının evini yıxsın, əgər mən saat 9.30-da işə gəlməmişəmsə"... "Dünənki iclas da bu məsələ ilə bağlı keçirildi. Mən orada ona görə çıxış etdim ki, yazılıb: "Tufan" əməliyyatı olub, İsa bəy hazırlayıb və Pənah icra edib. Elə əməliyyatdan xəbəri olanın Allah evini yıxsın. Adamın vicdanı olar. Demək lazımsa, mən istefa vermişəm, arxayın olun. Camaatı bu qədər aldatmaq olmaz axı. İsa bəydən də xahiş etmişəm bu millətin xatirinə istefa verəcək. Adamın Allahı olar. Üzr istəyirəm, bərk qışqırdığıma görə".

Parlamentin sədri İsa QƏMBƏROV: "Hər halda qışqırmağa ehtiyac yoxdur. Əsəbiləşməyin. Sadəcə olaraq, məhz mən istəmədim ki, xalq bu tipli söhbətləri eşitsin, daha da qəzəblənsin. Fikirləşsin ki, Azərbaycanda kimlər hakimiyyətdədir, kimlər müxalifətdədir, kimlər hansı səhvlərə yol verib. Ona görə mən bunun əleyhinəyəm".

Prezident Əbülfəz ELÇİBƏY: "Qardaşlar, vallah, düz etmirsiniz. Hirslənirsiniz. Bu hirslənməklə deyil, axı, başınıza dönüm. Bu, çox pis nəticə verəcək. Deyirsiniz veribdir. Bu, lap böyüyə bilər. Olmaz, axı. Bəli, bundan pisi də ola bilər. Siz bunu bilin ki, biz burada, yenə də deyirəm, məsələn, deyək ki, Etibar mənə bir söz deyəcək, mən də ona bir söz deyəcəyəm. O ona bir söz deyəcək, bu, xalqın arasında dava-dalaşa çevriləcək. Ona görə də, qardaş, siz bir komissiya təşkil edin, həmin komissiyanın tərkibinə kimi istəyirsinizsə seçin".

Şəxsən mən heç nə anlamadım.

Əvvəllər xalq hərəkatında olmuş, sonradan Elçibəy tərəfdarlarından ayrılmış Etibar MƏMMƏDOV: "Mən Məclisin əvvəlində dedim ki, İsa Qəmbərov bu iclasa sədrlik edə bilməz. Arif bəy deyir ki, burada məqsədli adamlar var, bəli, həmin məqsədli adamlardan biri də İsa Qəmbərovdur. Onun məqsədi bu qarşıdurmanı artırmaq, müzakirəni uzatmaqdır. Birincisi, burada Pənah Hüseynov and verdi, kimlərəsə evi yıxılsın dedi. Bəli, Pənah bəy, evləri yıxmısınız. İndi yalançının evini yıxmaq lazım deyil. Çünki yalançı siz özünüzsünüz".

Tahir ƏLİYEV: "Əbülfəz bəy, bilmirəm, bunu çox adam bilir, yoxsa bilmir, sizinlə mən çox yaxın olmuşuq... Biz sizinlə danışmışdıq ki, bu rejimdən çıxaq. Biz danışmışdıq ki, müstəqilliyimiz olsun. Biz danışmışdıq ki, hərbi polis rejimi olmasın. Danışmışdıq ki, ədalətli dövlət, cəmiyyət quraq. Bəlkə mən yalan danışıram, Əbülfəz bəy? Bəs biz nə qurduq? Mən bu sözləri deməyə də bilərdim. Özünüz də bilirsiniz sizin işiniz yaxşı getmirdi. Sizin tərəfinizdən təşəbbüs olmayıb, bunu çox adam bilmir. O vaxtı da mən sizin yanınıza gəlmədim. Mən əyilən oğlanlardan deyiləm. Görürəm ki, bu gün təkcə sizin yox, bütün millətin vəziyyəti gərgindir. Bu sözləri ona görə deyirəm".

Bəli, Azərbaycan Xalq Cəbhəsi və Müsavat tandeminin iqtidarı milli tariximizə belə utanc səhifələri də yazmışdır. İndi həmin iqtidarın tör-töküntüləri işğalçı Ermənistana diz çökdürmüş, azad edilmiş ərazilərdə misli görünməmiş bərpa-quruculuq işlərini davam etdirən, Şuşanın beynəlxalq tədbirlərə evsahibliyi etməsinə nail olan iqtidara şər-böhtan atanda, hədyan söyləyəndə, sadəcə, deməyə söz tapılmır.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***